# Mənim ardımca gəlin

## Dərslik

İkinci beynəlxalq nəşr, 2017

**Tim Qrin**

## Minnətdarlıq

Ruhlandırmaqla, məsləhət və dua etməklə bu layihəyə dəstək verən hər kəsə böyük minnətdarlığımı bildirirəm. Syu ilk nəşrdən əvvəl yüzlərlə saat ərzində mətni diqqətlə yoxlayıb; Ceykob və Reyçel son mərhələlərdə yorulmadan işləyib, Cen isə ikinci nəşrdə xeyli çalışıb. Mişel rəsmlərlə, Devid isə kitabın üz qabığındakı şəkil üzərində çalışıb. Müxtəlif ölkələrdən olan qırx nəfərə yaxın oxucu yoxlama işində fəal iştirak edib, dəyərli məsləhətlər verib. Adları çəkilməsə də, xüsusilə S, D və C-yə böyük minnətdarlığımı bildirirəm. Alman, Fars və Ərəb nəşrləri üzərində işləyən tərcüməçilər və redaktorlar faydalı məsləhətlər veriblər. Öz ailəmə, xüsusilə də həyat yoldaşım Reyçelə böyük minnətdarlığımı bildirirəm. Bir çox il ərzində təzyiq altında şagirdlik yolu ilə gedən imanlıların sevincinə və çətinliklərinə şərik olmuşuq.

## İkinci beynəlxalq nəşr haqqında

İkinci beynəlxalq nəşr (2017) ilk nəşrə (2013) çox bənzərdir, sualların və səhifələrin sayı eynidir. Sadəcə, bəzi hərf səhvlərini düzəltmişik, mürəkkəb ifadələri sadələşdirmişik və bəzi dərslərin sonunda dərsə aid məsləhətlər vermişik. Bəzi səhifələrdəki mətnlərdə düzəlişlər etmişəm: səh.3 (sual 8), səh. 24 (sual 11), səh. 44 (sual 15), səh. 68 və 76 (ev tapşırıqları), səh. 98 (sual 15, 17) və səh. 151 (Giriş Sözü).

Əvvəlcə mən bu kursu doğma ölkələrində yaşayan imanlılar üçün tərtib etmişdim, indi isə bu kursdan, Qərb daxil olmaqla, bir çox ölkələrdə istifadə edirlər. Əsas anlayışlar eynidir, lakin kursun rəhbərləri müzakirə suallarını özlərinə uyğunlaşdırmalıdırlar.

Bu kitabların satışından əldə edilən gəlir layihənin genişlənməsi üçün istifadə ediləcək. Gələcək nəşrləri təkmilləşdirmək məqsədi ilə sizdən təkliflərinizi göndərməyinizi xahiş edirəm.

Tim Qrin, sentyabr 2017. comefollowmecourse@gmail.com

## Əlavə məlumatı

və “Müəllimlər üçün vəsait”i come-follow-me.org saytından əldə etmək olar.

**Müəlliflik hüququ**

İlk dəfə 2013-cü ildə Birləşmiş Krallıqda Lulu.com saytında dərc olunmuşdur. Bütün hüquqlar müdafiə olunur.İkinci nəşr, 2017. Müəlliflik hüququ © Tim Qrin 2013.

Oxucular tanış olmaq məqsədi ilə bu saytdan ən çox iki dərsin istənilən sayda surətini götürə bilərlər və bu, satış üçün nəzərdə tutulmamalıdır. Xahiş edirik, iki dərsdən çox götürməyin. İcazə üçün mənimlə əlaqə saxlayın (comefollowmecourse@gmail.com).

Ayələr Müqəddəs Kitabdan götürülüb. Müəlliflik hüququ:

Əhdi-Ətiq © Müqəddəs Kitab Şirkəti 2004, 2006, 2009 (təkrar yoxlanılmış).

Əhdi-Cədid © Müqəddəs Kitab Şirkəti 2009.

Bütün hüquqlar müdafiə olunur.

ISBN Kitabın üzündəki rəsmlər: David Vosburq.www.zagmediaarts.com

Müqavimətə baxmayaraq, öz ailələrinin, keçmiş cəmiyyət üzvlərinin,

eləcə də imanlıların yerli cəmiyyətinin qeydinə qalan və

Məsihdə yeni həyat yaşamağa və Onun cəmiyyətində

öz yerini tapmağa çalışanlara həsr olunur.

# Əvvəlcə bunu oxuyun!

*"Mənim ardımca gəlin"* kursu sizə Məsihdə və Onun imanlılar cəmiyyətində böyüyüb güclü olmaqda kömək edəcək.

Bu dərslik bütöv kurs deyil! Bu, üç hissədən birincisidir. Buna görə də növbəti qaydalara riayət edin:

- Əvvəlcə bir dərsin suallarına cavab verin (6-cı səhifədə göstərişlər verilir);
- Sonra bu dərsi məsləhətçi ilə və ya qrupda müzakirə edin;
- Sonra 'Ev tapşırığı' hissəsini həyatınıza tətbiq edin.

Bu addımlar sizin məlumatınız ı artıracaq, ürəyinizi dəyişəcək və əllərinizi xidmət üçün təchiz edəcək.




Beləliklə, bu kitabı təkbaşına tədqiq etməyin. Bir məsləhətçi kimi, özünüzə müdrik məsihçi tapmağınız yaxşı olar. Hər dərsi öyrənəndən sonra məsləhətçi ilə görüşün. Öyrəndiklərinizi birlikdə müzakirə edin və həqiqətləri tətbiq etməyin yolları barədə düşünün. Həyatınızda olan çətinliklər barədə məsləhətçi ilə danışın. Birlikdə dua edin və bir-birinizi Məsihdə dəstəkləyin. Bunu imanlılar qrupunda etsəniz, daha faydalı olar.

*"Mənim ardımca gəlin"* kursundan istifadə edirsinizsə, *"Müəllimlər üçün vəsait"* kitabını əldə edin. Bu, sizə mövzuları anlamaqda kömək edəcək. Həmçinin burada hər dərsə aid ətraflı müzakirə suallarının siyahısı verilir.

*"Müəllimlər üçün vəsait"* kitabını come-follow-me.org saytından endirə bilərsiniz və yaxud həmin saytdan kitabı sifariş edə bilərsiniz.

Lütfən, öz təkliflərinizi mənə göndərin; bu, kursu təkmilləşdirməkdə böyük kömək ola bilər. Həmçinin buna bənzər kurslar barədə məlumat almaq istəsəniz, mənə yazın.

Əvvəlcədən minnətdarlığımı bildirirəm! Tim Qrin comefollowmecourse@gmail.com

come-follow-me.org

# Mündəricat


| Dərs | Mövzu | Səhifə |
|---|---|---|
| | *Şagird üçün göstərişlər* | vi |
| 1-ci dərs: | Məsihin davamçısı olmaq barədə | 1 |
| 2-ci dərs: | Məsihdə yeni həyat | 8 |
| 3-cü dərs: | Ata Allah | 15 |
| 4-cü dərs: | Müqəddəs Ruhun qüdrəti ilə Məsihə itaətli olmaq barədə | 21 |
| 5-ci dərs: | Allah ilə ünsiyyət | 28 |
| 6-cı dərs: | Bizə verilən Allah Kəlamı | 35 |
| 7-ci dərs: | Məsihin cəmiyyətinin üzvləri | 42 |
| 8-ci dərs: | İki cəmiyyətin üzvləri | 49 |
| 9-cu dərs: | Təqibin səbəbləri | 56 |
| 10-cu dərs: | Təqibə münasibət | 63 |
| 11-ci dərs: | Ərlər və arvadlar | 70 |
| 12-ci dərs: | Mübahisəli məsələlərin həlli | 78 |
| 13-cü dərs: | *Şəhadət etmək barədə* | 87 |
| 14-cü dərs: | Vəftiz | 95 |
| 15-ci dərs: | Doğru yol | 102 |
| 16-cı dərs: | Məhəbbət qanunu | 109 |
| 17-ci dərs: | Oruc və nəzir | 116 |
| 18-ci dərs: | Tale və falçılıq | 124 |
| 19-cu dərs: | Bir-birimizə xidmət haqqında | 132 |
| 20-ci dərs: | Səmaya zəvvarlıq | 140 |
| Əlavə 1: | Allah ilə gündəlik keçirdiyim vaxt | 149 |
| Əlavə 2: | Allaha necə çatmaq olar | 151 |
| | Rəylər | 154 |

# Şagird üçün göstərişlər




1. Hər bir sualı diqqətlə oxuyun.
2. Cavabınızı yazın və ya işarələyin [P].
3. Cavabınızı yazandan sonra onları dərsin sonundakı cavablarla müqayisə edin.
4. Hər dərsi bitirəndən sonra əsas fikirləri təkrarlamaq üçün «İcmal» bölməsinə nəzər salın.
5. Bəzi tapşırıqlarda sizdən müzakirə vaxtı öz fikrinizi söyləmək xahiş olunur. Bu tapşırıqlardakı suallara cavab verin və müzakirəyə hazır olun.
6. İlk beş dərs üçün sizə yalnız bu kitab lazım olacaq. 6-cı dərsdən başlayaraq, Müqəddəs Kitabdan istifadə edəcəksiniz. Müqəddəs Kitab müxtəlif dillərə tərcümə olunsa da, orijinal dillərdə olan mətn eynidir.
7. Dünyada İsa Məsihin davamçıları çoxdur və onlardan bir çoxları sizin əvvəlki dininizdən çıxmışdır. Bəziləri savadlı, bəziləri isə savadsızdır. Hətta savadı olmayan adam anlasın deyə, bu kurs sadə dildə yazılıb. Təlim sizə çox sadə görünsə belə, onları həyatınızda tətbiq edəcəksinizmi? Allaha sizin biliyiniz deyil, itaətiniz gərəkdir. Təlimə itaət etsəniz, çox xeyir tapacaqsınız.
8. Yadda saxlayın: məsləhətçiniz sizə kömək edir. Müzakirə üçün təyin etdiyiniz görüşlərə vaxtında gəlin və ev tapşırıqlarını yerinə yetirin.

***İndi isə Rəbbin köməyi ilə başlayın!***

# 1-ci dərs: Məsihin davamçısı olmaq barədə



**Həyatımızın məqsədi**

İki nəfər müzakirə edir. Biri deyir: «Hər şeyə qadir olan Allah məni Onun əmrlərinə tabe olmaq üçün yaradıb. Mənə doğru yolu göstərmək üçün Allah peyğəmbərləri göndərmişdir. Mən bu yol ilə getsəm, ümidvaram, Allah günahlarımı bağışlayar və məni cənnətə buraxar. Bu, həyatımın məqsədidir».

O biri kişi isə deyir: «Mən də Allahın əmrlərinə riayət etmək istəyirəm. Ancaq mən qorxmuram. Əminəm, Allah məni cəhənnəmin oduna göndərməyəcək. O, günahlarımı bağışlayıb və cənnətə qəbul edəcəyinə söz verib. Beləliklə, yer üzündə yaşayarkən Allahı şəxsən tanıdığıma görə sevinirəm; Onun sevgisini hiss edirəm və Onu sevirəm. Mən hər gün, hər an Onun üçün yaşamaq istəyirəm. Bu, həyatımın məqsədidir».




1. Həyatımız barədə düşünmək bəzən çətin olur. Hazırkı problemlər və gələcəyə aid həyəcanlar bizim üçün ağır yükdür. Müqəddəs İncildə Rəbb İsa Məsih hamımıza aid olan bir vəd verir:

| |
|---|
| «Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm» (Matta 11:28) |

Bu sözləri şəxsən sizə deyən İsa Məsih barədə düşünün! Bu sözləri əzbərləyənə qədər onları təkrarlayın. Sonra aşağıdakı cümlədə çatmayan sözləri yazın:

«Ey bütün ___________ və ___________ olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm».

2. Rəbb İsa Məsih dünyaya gələndə bu sözləri dedi. O, adamlara “Mənim ardımca gəlin” deyirdi. Bəziləri sevinclə Onun davamçıları oldu, digərləri isə Onu rədd etdilər. Məsih bu gün sağdır və bu gün də O, bizi dəvət edir və deyir: «___________________».

**Məsihin davamçısı olmaq barədə**

3. Gəlin Məsihin davamçısı olmaq barədə öyrənək. Biz Məsihin ilk davamçılarından biri olan Şimon Peter adlı balıqçıya nəzər sala bilərik. Gəlin bu barədə Müqəddəs Kitabda oxuyaq:

> Bir gün İsa Ginesar gölünün sahilində dayanmışdı. İzdiham İsanı dövrəyə almışdı və Allahın Kəlamına qulaq asırdı. İsa göl kənarında duran iki qayıq gördü. Balıqçılar isə qayıqdan çıxıb torlarını yuyurdular. İsa iki qayıqdan birinə – Şimonun qayığına minib onu gölün kənarından bir az uzaqlaşdırmasını xahiş etdi. Sonra İsa oturdu və qayıqdan izdihama təlim öyrətməyə başladı. O, sözünü qurtaranda Şimona dedi: «Qayığı dərinliyə aparın və torlarınızı balıq tutmaq üçün suya atın». Şimon cavab verdi: «Ustad, biz bütün gecə çalışdıq, lakin heç nə tuta bilmədik. Amma Sənin sözünə görə yenə də torları ataram».
>
> Bunu etdilər və o qədər balıq tutdular ki, hətta torları cırılmağa başladı. O biri qayıqdakı yoldaşlarına da işarə etdilər ki, gəlib kömək etsinlər. Onlar gəlib hər iki qayığı balıqla doldurdular. Qayıqlar da batmağa başladı. Şimon Peter bunu gördükdə İsanın ayaqlarına düşdü və belə dedi: «Ya Rəbb, məndən uzaqlaş, axı mən günahkar bir adamam». Çünki özü də, yanındakılar da tutduqları balıqların çoxluğuna görə heyrətə düşmüşdülər. Şimonla ortaq olan Yaqub və Yəhya adlı Zavday oğulları da eyni hisslər keçirirdi. Amma İsa Şimona belə dedi: «Qorxma, bundan belə, balıq əvəzinə adam tutacaqsan». Onlar qayıqları göl kənarına çıxarıb hər şeyi atdılar və İsanın ardınca getdilər.
>
> (Luka 5:1-11, Müqəddəs Kitab)

Müqəddəs Kitabdan olan bu mətnin hamısını oxuyandan sonra burada ☐ belə bir işarə (✓) qoyun və davam edin.

4. Görünür, Şimon Peter İsanın davamçısı olmaq üçün dörd addım atdı. Bu gün də adamlar məhz bu dörd addım ilə Rəbb İsanın davamçıları olurlar. Gəlin bu barədə indi öyrənək.

**Birinci addım: Günahdan dönmək**

Balıq möcüzəsini görəndən sonra Şimonun gözləri açıldı. O, Rəbb İsanın müqəddəsliyini və öz xəcalətini gördü. O, İsaya nə dedi? «Ya Rəbb, məndən uzaqlaş, axı mən __________ bir ____________________» *(yuxarıdakı mətnin son paraqrafına diqqət yetirin).*

5. Şimon "günahkar" olduğunu dərk etdi. Çox güman ki, o, qətl və ya zina etməmişdi. Lakin İsa onun ürəyində olanı görürdü. Şimon Rəbb İsadan öz xəcalətli sirlərini və ya şər fikirlərini gizlədə bilməzdi.

Bəs, siz necə? Getdiyiniz məsciddə gizli günahlarınız mikrofonla ucadan elan olunsa, xəcalət çəkərsiz? Bu sirləri qonşulardan və ailənizdən gizli saxlaya bilərsiniz, lakin siz onları İsa Məsihdən gizlədə bilməzsiniz. Həkim rentgen aparatında bədəninizin hər bir sümüyünü aydın gördüyü kimi, İsa da həyatınızdakı hər bir gizli şəri görür!

➢ ***İndi bir anlıq dayanın və İsa Məsihdən xahiş edin ki, həyatınızın qaranlıq yerlərini sizə göstərsin.***

6. Əslində, hər bir insan günaha batıb. Ömər Xəyyam demişdi:

«O, kimdir dünyada etməsin günah;
Günahsız bir insan yaşamaz əsla.
Mənim pisliyimə pislik edirsən.
Bəs bizim fərqimiz nədir, ay Allah!»

Kimsə öz günahını Allahdan gizlədə bilərmi? [Bəli / Xeyr] *(düzgün cavabı işarələyin)*

7. Sizə əvvəllər belə öyrətmişdilər: Allah özünü pak edənləri sevir, günahkarlara isə nifrət edir. Bəs, Pak olan İsa günahkar Şimona nifrət edirdimi? Təəccüblü olsa da, nifrət etmirdi! İsa Şimona nə dedi? *(3-cü sualda verilən mətni oxuyun və düzgün cavabı qeyd edin)*

 ___ a) «Məndən uzaqlaş»
 ___ b) «Qorxma»

8. Şimon İsanın "Qorxma" sözlərini eşidəndə tam dəyişdi. Şimon kimi, siz də natəmiz günahkar olduğunuzu dərk edirsinizsə, cəsarətli olun. İsa Məsih sizə görə həyatını qurban verdi, Əlavə 2 bu barədə ətraflı məlumat verir. İsa sizə bağışlamağa və günahlarınızı yuyub təmizləməyə hazırdır!

Bəs siz? Bu səxavətli hədiyyəni qəbul etməyə hazırsınızmı? Bir-birindən tam fərqli olan bu iki adama nəzər salın:

***İmran***




***Şaiq***




İsa Məsih kimi yuyub təmizləyəcək: İmran kimi qürurlu adamı, yoxsa Şaiq kimi həlimi? ______________________________

9. Rəbb İsa demişdi: «Mən salehləri deyil, günahkarları tövbəyə çağırmaq üçün gəlmişəm» (Luka 5:32). Tövbə "dönüb əks istiqamətdə getmək" deməkdir. Şəkildəki bu iki nəfərə nəzər salın:

 a) Bunlardan hansı tövbə edib: 1. yaxud 2.? ____
 b) Bunlardan hansı köhnə yoluna davam edir: 1. yoxsa 2.? _____



1 2

10. «Tövbə etmək» günahlara görə təkcə təəssüf etmək deyil. Tövbə günahdan tam dönmək deməkdir. 2-ci şəkildəki adam bunu edir. Buna görə də əsl tövbənin nəticəsi nədir? *(Bir cavabı qeyd edin.)*

 ___ a) günahlı həyatınıza görə təəssüf etməmək
 ___ b) günahlara görə təəssüf etmək, lakin həyat tərzini dəyişməmək
 ___ c) günahdan tamamilə dönmək və həyat tərzini dəyişmək

11. İsanın davamçısı olmaq üçün Şimon hansı birinci addımı atdı?

 _____________ dönmək.

**İkinci addım: qurban verməyə hazır olmaq**

12. Növbəti addım – Şimon Məsihin davamçısı olanda nəyi qurban verəcəyini dərk etdi. Şimon çətin seçim qarşısında qalmışdı. Çox güman ki, onun ağlında bu iki fikir var idi:




Şimon nəyi başa düşdü? Məsihin davamçısı olmaq üçün ________ vermək gərəkdir.

13. İsa Məsih Onun davamçısı olmağın qiyməti barədə bu məsəli danışdı:

> «Səmavi Padşahlıq gözəl mirvarilər axtaran bir tacirə bənzəyir. O, çox dəyərli olan bir mirvari tapanda gedib bütün varını satdı və onu satın aldı» (Matta 13:45-46).

İsanın davamçısı olanda sizin üçün tərk etməli olacağınız ən dəyərli şeylər nədir? Növbəti cavablardan birini və ya bir neçəsini qeyd edin: (bu, sizin cavabınız olmalıdır)

___ a) cəmiyyətdəki adınız
___ b) işiniz
___ c) ailəniz
___ d) eviniz və ya mirasınız
___ e) başqa *(burada yazın)* ___________________

14. Lakin «çox dəyərli olan bir mirvari» buna layiqdir! Məsih uğrunda nəyi isə qurban verəndə çarmıxda Onun bizim üçün etdiyi Qurbanı yada salın!

> «Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü» (Rom.5:8).

Beləliklə, ən böyük qurbanı kim verdi: biz, yoxsa Məsih?_________

9-10-cu dərslərdə İsa Məsihin bizə təqibdəköməyi barədə öyrənəcəyik.

**Üçüncü addım: özünüzü Məsihə etibar edin**

15. Məsihin davamçısı olmaq üçün Şimon əvvəlcə günahdan döndü; ikincisi, qurban verəcəyi şeylər barədə düşündü. Sonra o, üçüncü addıma gəlib çatdı: «Özünü Məsihə etibar et».

3-cü sualda mətnin sonuncu cümləsini bir daha oxuyun. Şimon və onun yoldaşları İsanın çağırışına necə cavab verdilər? *(boş yerlərə cavabları yazın)*

«Onlar qayıqları göl kənarına çıxarıb _______________ atdılar və İsanın ____________».

16. Şimon yeni müəllimi olan İsaya özünü tamamilə etibar etdi.

Gündəlik həyatımızda özümüzü kimə isə necə etibar edə bilərik? Bəzi nümunələr bunlardır:

- ✓ ***Yorğun uşaq*** atasına etibar edərək onun qucağına gəlir.
- ✓ ***Xəstə*** həkimə etibar edərək dərman qəbul edir.
- ✓ ***Sərnişin*** sürücüyə etibar edərək yola çıxır.

Uşaq, xəstə və ya sərnişin kimi, həyatımızı İsaya verərkən özümüzü Ona etibar edirik. Bizi müdafiə edəcəyinə, bizi istiqamətləndirəcəyinə etibar edirik. Müəllimə itaət etdiyimiz kimi Ona tabe oluruq.

Məsihin davamçısı olmağın üçüncü addımı nədir?

1. Günahdan dönmək.
2. Verəcəyiniz qurbanı dərk etmək.
3. Özünüzü Məsihə __________ etmək.

17. Özünü Məsihə həsr edəndən sonra Şimon Peter növbəti üç il ərzində İsa ilə səyahət etdi. O, müəlliminin sevincli və kədərli günlərində iştirak etdi. İsanın adamlara şəfa verdiyini, hətta ölüləri diriltdiyini gördü. Peter İsadan adamları sevməyi öyrəndi. Getdikcə, şagird Şimon müəllimi İsaya daha çox bənzəməyə başladı. Daha sonra Şimon ikinci adı Peter ilə daha çox tanındı.

Şimon Peter necə Məsihin davamçısı oldu?(yaxşı cavabı qeyd edin)

___ a) Özünü Məsihə etibar etməklə
___ b) İmanını etiraf etməklə (*kəlmeyi*-şəhadət)

18. Bildiyiniz kimi, şagird müəllimini müşahidə edərək və onun etdiklərini təkrarlayaraq müəllimdən öyrənir. İsanın şagirdi Şimon Peter də Ondan bu yolla öyrənirdi.

Biz də İsanın davamçıları olanda şagird kimi İsadan öyrənməyə başlayırıq. Fiziki gözlərimizlə Onu görməsək belə, Onun etdiklərini təkrarlamaqla Ona bənzər oluruq. Biz İsanın xidmətində iştirak edirik, bu da, böyük şərəfdir.

Məsihin şagirdi olmaq üçün 3-cü addım nədir? Özünü Məsihə __________ etmək.

**Dördüncü addım: Məsihin cəmiyyətinə qoşulun**



19. İsanın çağırışını qəbul edən Şimon tək deyildi. O, Məsihin cəmiyyətinə qoşuldu. Məsihin şagirdləri bir qrup olaraq birgə yaşayır, bir-birlərinin həyatında iştirak edirdilər. Müxtəlif nəsillərdən, müxtəlif təbəqələrdən olan şagirdlərin arasında bir-birinə böyük məhəbbəti var idi.

Bu, asan deyildi. Bəzən onların mübahisələri olurdu. Lakin onlar mübahisələrini həll edib bir-birini bağışlayırdılar. Şimon Peter öyrənmişdi ki, Məsihə aid olan hər kəs Onun cəmiyyətinə ________________.

Məsihin cəmiyyətinə qoşulmaq hər bir imanlı üçün zəruridir!

***Bu barədə 7-ci dərsdə daha ətraflı öyrənəcəyik.***

20. İsa Məsih Şimon Peteri Onun davamçısı olmağa çağırdı. Bunun üçün hansı addımlar gərəkdir?

 1. Günahdan ____________
 2. ____________ verməyə hazır olmaq
 3. Özünü Məsihə ____________ etmək
 4. Məsihin cəmiyyətinə ____________



Axırıncı sual budur: şəxsən sizin üçün bugünkü dərsin mənası nədir?

- ***Ola bilsin, siz artıq Məsihin ardınca gedirsiniz.*** Belədirsə, bu kurs sizə Məsihdə böyüməkdə yardım edəcək.
- ***Ola bilsin, siz Məsihin davamçısı olmağa hazırsınız.*** Onda məsləhətçiniz ilə təklikdə danışın, o, sizə bu addımı atmaqda kömək edəcək.
- ***Ola bilsin, bu mühüm addım barədə düşünmək üçün sizə vaxt gərəkdir.*** Yaxşı, ancaq bu qərar ilə çox ləngiməyin, çünki həddindən çox gecikə bilərsiniz. İstəsəniz, bu kursu öyrənməkdə davam edin, lakin Məsihin davamçısı olmaq qərarını versəniz, bu kursun sizə daha böyük faydası olar.

1-ci dərs: EV TAPŞIRIĞI

Bu həftə vaxt ayırıb bu suallar barədə təklikdə düşünün. Məsihin davamçısı olmağa hazırsınızmı? Yaxud siz artıq Onun ardınca gedirsiniz? Bəlkə, düşünmək üçün sizə daha çox vaxt gərəkdir?

İndi isə İcmala keçin.

## 1-ci dərs: İCMAL

1. Matta 11:28-dən İsanın hansı dəvət sözlərini əzbərlədiniz? *(əzbərləyə bilmədinizsə, 1-ci suala baxın)*

“Ey bütün ______________________________, Mənim yanıma gəlin”.

2. Məsihin davamçısı olmaq üçün tələb olunan dörd addımı sadalayın:

 1. ________ dönmək.
 2. ______________ verməyə hazır olmaq.
 3. Özünüzü Məsihə __________ edin.
 4. Məsihin __________ qoşulun.

## 1-ci dərs: CAVABLAR

1. yorğunlar, yükləri ağır
2. Mənim ardımca gəlin
3. mətni oxuyun
4. günahkar, adamam
5. şəxsi cavab
6. xeyr
7. b)
8. həlim adamı
9. a) 2-ci adam, b) 1-ci adam
10. c)
11. günahdan
12. qurban
13. şəxsi cavab
14. Məsih
15. kənara, ardınca getdilər
16. etibar
17. a)
18. etibar
19. qoşulub
20. 1. dönmək, 2. qurban, 3. etibar, 4. qoşulmaq.



# 2-ci dərs: Məsihdə yeni həyat

Məsihin davamçısı olan şəxs yeni kəlmeyi-şəhadəti demir. O, Məsihdə yeni həyatı qəbul edir! Yəni:

A. Yeni insan
B. Yenidən doğulma
C. Yeni təbiət



1. Gəlin Müqəddəs Kitabın bir hissəsi olan və «Peterin Birinci Məktubu» (və ya qısaca "1Peter") adlanan hissədən bu gözəl həyat barədə öyrənək. Haqqında 1-ci dərsdə öyrəndiyimiz Şimon Peter bu məktubu Allahın ilhamı ilə yazdı. Məktub belə başlayır:

| «İsa Məsihin həvarisi mən Peterdən» (1Peter 1:1). |
|---|

Peter burada özünü necə adlandırır? *(düzgün cavabı qeyd edin)*

___ a) şagird ___ b) həvari ___ c) peyğəmbər

2. Müqəddəs Kitabda «həvari» sözünün mənası belədir: "xüsusi tapşırığı yerinə yetirmək üçün göndərilmiş şəxs" ("Müqəddəs Kitabın nazil olunduğu şəxs" deyil). Rəbb İsa 12 kişini seçdi, onları öyrətdi və xüsusi tapşırıq verib göndərdi. Məhz buna görə onlar "həvari" adlanırlar. Onların başçısı həvari Peter olub.

Biz bu kurs ərzində Allahın Kəlamının hansı hissəsini öyrənəcəyik? Həvari _________ Birinci Məktubu.

3. 1Peterin birinci ayəsi bizə məktubun müəllifi barədə deyir. Həmçinin məktubun kimə ünvanlandığı barədə məlumat verir. Onlar Məsihin bu gün Türkiyə adlanan ölkədə yaşayan davamçıları idilər. Bu ayədə onlar Allahın «seçilmiş» adamları adlanırlar.

   ➢ ***İndi fasilə edin və bizi seçdiyinə görə Allaha şükür edin!***

4. Həmin ayədə onlar «qəriblər» adlandırılırlar. Ola bilsin, siz vətəninizdən uzaqda yaşayırsınız. Yaxud eyni ölkədə yaşayır, lakin qohumlarınız tərəfindən rədd edilmisiniz. Bu, çox çətin vəziyyətdir!

Bəs, siz Allahın gözündə kimsiz? Biz Allahın seçilmiş _________.

**A) Yeni insan**

5. Bəli, biz Allahın seçilmişləriyik! Əvvəlki cəmiyyətimiz bizi rədd edə bilər, lakin *«*Allah bizimlədirsə, kim bizə qarşı dura bilər? O Öz Oğlunu belə, əsirgəməyib Onu hamımızın uğrunda ölümə təslim etdisə, Onunla birgə bütün şeyləri də bizə lütf etməyəcəkmi?*»* (Rom.8:31,33). *«*Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənlərin haqqını qorumayacaqmı?*»* (Luka 18:7)

Məsihin davamçıları kimi, indi siz kimsiz? (düzgün cavabı qeyd edin)

___ a) Allahın seçilmişləri ___ b) mürtədlər ___ c) satqın

6. Növbəti ayə deyir: "Ata Allahın qabaqcadan bilməsinə görə siz Ruh tərəfindən təqdis olunaraq İsa Məsihə itaət etməniz və Onun qanının üzərinizə səpilməsi üçün seçilmisiniz*"* (1Peter 1:2).

| |
|---|
| Valideynlərini itirmiş bir oğlanın hekayəsi belədir: Bir ailə onu övladlığa götürüb böyütdü. Bir gün başqa oğlanlar ona istehza edərək bu barədə dedilər. O isə cavab verdi: «Yox, mən sizdən daha sevimliyəm. Sizin valideynləriniz sizi seçməyib, mənim atam isə məni seçib qəbul etdi!» |

Allah tərəfindən seçilmək böyük işdir! Biz bunu xeyirxah işlərimizlə qazandıqmı?

[Bəli / Xeyr]

7. Allah bizi sevdiyinə görə seçdi. Buna layiq olduğumuza görə bizi seçmədi. Düzdür, biz də İsa Məsih vasitəsilə Allahın ardınca getməyi seçirik. Belə ki, həm Allahın seçimi, həm də bizim seçimimiz üst-üstə düşür.

Məsihdə biz kim oluruq? Allahın ___________.

## B) Yenidən doğulmaq

8. Soxulcan ilə tırtılın arasındakı fərqi bilirsinizmi? Onlar bənzər olsalar da, çox fərqlidirlər. Soxulcan sürünür və ölənə qədər dəyişmir. Tırtıl isə ecazkarcasına dəyişir. Ölmək əvəzinə, o, nə olur? *(şəklə bax)* ____________________



9. Yarpağın üstündə çətinliklə hərəkət edən eybəcər tırtıl gözəl kəpənəyə dönərək havada uçur. Bu, ecazkar deyilmi? Yeni məxluq olmaq üçün insan da yenidən doğulur. «Yenidən doğulma» məhz budur.

Tırtılda hansı dəyişikliklər baş verir? “Yenidən _________”

10. İsa Məsihin davamçısı oldunuzmu? Güzgüyə baxanda əvvəlki insanı görürsünüz. O, <u>zahirən</u> eynidir. Əslində isə, <u>daxilinizdəki</u> dəyişiklik tırtılın kəpənəyə çevrilməsinə bənzəyir. Məsih sayəsində baş verən bu dəyişiklik «yenidən doğulma» adlanır.

Hansı adamlar yenidən doğulurlar?*(birini qeyd edin)*

___ a) Ölkəmizdə yaşayan bütün adamlar
___ b) Özlərini Məsihə həsr edən adamlar
___ c) Məsihçi ailəsində doğulanların hamısı

11. “1Peter”dən olan növbəti ayə bu yenidən doğulma barədə bəhs edir:

| |
|---|
| «Rəbbimiz İsa Məsihin Allahına – Atasına alqış olsun! O Öz böyük mərhəmətinə görə <u>yenidən doğulmamızı</u> təmin etdi» (1Peter 1:3). |

Bu ayəyə görə, yenidən doğulmanı kim təmin etdi?

___ a) Böyük mərhəmətinə görə Allah
___ b) xeyirxah işlərimizə görə biz özümüz
___ c) bir müqəddəs adamın bizim üçün etdiyi dualara görə

## Yenidən doğulmusunuzmu?

12. Allah bu yenidən doğulmanı hər kəsə təklif edir, lakin hər kəs bunu qəbul etmir.

Həkimin üç xəstəyə dediklərinə və xəstələrin cavablarına nəzər salın:




Bu xəstələrin hansı sağalacaq: A. B. və ya C.? _________

13. Eyni yolla, aşağıdakı üç nəfərdən hansı Məsihdə yenidən doğulacaq? *(birini qeyd edin)*

___ a) Belə deyən: «Ey Məsih, təliminə inanıram, ancaq həyatıma onu qəbul etməkdən çəkinirəm».
___ b) Belə deyən: «Sənə inanmıram».
___ c) Belə deyən: «Sənə inanıram, Rəbb İsa. Özümü Sənə etibar edirəm. Həyatıma gəl».




### C) Yeni təbiətimiz

14. Məsihin davamçıları kimi biz «yenidən doğularaq» «yeni insan» oluruq. İsa Məsih bizə «yeni təbiət» verir, bu da Onun bizdə olan təbiətidir.

Əvvəllər mənsub olduğunuz dindən bir çox adam Məsihin davamçısı oldu. Həyatlarında baş verən dəyişikliklər barədə onlar belə deyirlər:

| | |
|---|---|
| ***Talıb:*** | «Məsihdə həyat maraqlıdır, adamı daxildən xoşbəxt edir». |
| ***Həsən:*** | «İsa mənə sevinc və sülh verdi». |
| ***Şamil:*** | «Gərginlik və narahatçılıq daha yoxdur». |

***Şəhla:*** «Çiynimdəki yüklərim və qorxu hissləri keçib getdi».
***Ləman:*** «Bilirəm ki, Allah məni olduğum kimi qəbul edir».
***Əhməd:*** «İçki, qadınlar və günahla dolu keçmişim qara idi. Sevinc və sülhlə dolu indiki həyatım nurdur». *(istinad: «İsa adi peyğəmbər deyil», Ralf Votton)*

Bunlar adi adamlardır. Onların həyatı necə dəyişdi?*(birini qeyd edin)*

___ a) İsa Məsih onlara yeni təbiət və bir çox yaxşı dəyişikliklər verdi
___ b) Onların həyatı pisləşdi
___ c) Onlar əvvəlki təbiətlərində dəyişməz qaldılar

15. İsa Məsih Öz yeni təbiətini bütün davamçılarına verir. Onlar kimi, biz də sevinc və sülhü hiss edərək yaşayacağıq. Lakin ən vacib olan hisslərimiz deyil. Daha vacibi İsanın bizim xasiyyətimizi dəyişməsidir. Bəzi adamların şəhadətləri:

| | |
|---|---|
| ***Həsən:*** | «İsa mənə siqaret çəkmək vərdişimə qalib gəlməyə güc verdi». |
| ***Cahangir:*** | «İsa məndən əvvəlki qüruru götürdü». |
| ***Ramiz:*** | «Pəltəklik və özümə qapanmağım keçib getdi». |
| ***Samir:*** | «Daha dalaşqan deyiləm». |
| ***Şamil:*** | «Adamları sevməyə başladım». |
| ***Azər:*** | «Qürur və lovğalıq ruhu əvəzinə indi məndə xidmət ruhu var». |
| ***Ramin:*** | «İşdə Rəbbə etibar etməyi və düzgünlüyü öyrənmişəm». |
| ***Məryəm:*** | «İstəyirəm başqaları da Məsihin sevgisini tanısınlar». |
| | *(istinad: «İsa adi peyğəmbər deyil», Ralf Votton)* |

Məsih sizin həyatınızı necə dəyişib? Öz fikirlərinizi yazın və müzakirə vaxtı onlarla bölüşməyə hazır olun: ____________________________________________

____________________________________________

16. Həyatınızda yuxarıdakı dəyişikliklər baş verməyibsə, narahat olmayın. Məsihdə böyüdükcə onlar tədricən gələcək. Uşağın böyüməsi üçün bir çox il lazımdır. Eyni yolla, yenidən doğulandan sonra ruhani cəhətdən yetkin olmaq üçün bir çox il lazımdır.

Lakin İsa daxilinizdə yaşadığı üçün getdikcə sizdə hansı «təbiət» daha aydın görünməlidir?

___ a) köhnə günahlı təbiət ___ b) Məsihdə yeni təbiət

## Ruhani döyüş

17. Məsihdə yeni təbiətə malik olsaq da, biz köhnə təbiətimizə qarşı mübarizə aparmalıyıq və bu, ömrümüzün son günlərinə qədər hər gün davam edəcək! Allahın Kəlamı bizə bu əmri verir:

«Buna görə cisminizin dünyəvi meylləri olan cinsi əxlaqsızlığı, murdarlığı, şəhvəti, pis ehtirası və bütpərəstliyə tay olan tamahkarlığı öldürün… Köhnə mənliyinizi (təbiətinizi) və onun əməllərini üzərinizdən çıxarıb yeni mənliyə (təbiətinizə) büründünüz. Yeni mənliyiniz onu Yaradanın surətinə bənzər şəkildə təzələnir ki, biliyiniz tam olsun» (Kolosselilərə 3:5,7-10).

Yuxarıdakı ayələrə görə, *(düzgün cavabları qeyd edin)*

a) hansı təbiəti biz «çıxarmalıyıq»? [köhnə təbiəti / yeni təbiəti]
b) hansı təbiətə biz «bürünməliyik»? [köhnə təbiətə / yeni təbiətə]

18. Aşağıdakı şəkillər Məsihin davamçılarının etdiyi bəzi əməlləri göstərir. Cavab üçün ayrılmış boş yerdə köhnə və ya yeni təbiətə görə edilən hərəkəti qeyd edin:




| Adam a): | Adam b): | Adam c): | Adam d): |
|---|---|---|---|
| ______ təbiət | ______ təbiət | ______ təbiət | ______ təbiət |

19 Hər gün İsanın bizə verdiyi yeni təbiətimiz günahlı təbiət ilə mübarizə edir. Bir kəndli bu mübarizəni sadə sözlərlə belə təsvir etmişdi: «Həyatımda sanki iki keçi döyüşür: qara və ağ». Ondan soruşdular: «Hansı keçi qalib gəlir?» O cavab verdi: «Hansına çox yemək versəm, o da qalib gəlir!»

➢ ***Kəndlinin məsəli barədə düşünün. Qara keçi bizim köhnə günahlı təbiətimizi, ağ keçi isə bizim yeni təbiətimizi təmsil edir. Bu gün həyatınızda hansı qalib gəlir? Nə üçün? Müzakirə vaxtı üçün hazır olun.***



20. Allahın Kəlamından olan növbəti ayə bu gün öyrəndiklərimizi cəmləyir:

«Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi!» (2 Kor. 5:17).

Boşluqları doldurun və ayəni əzbərləyənə qədər təkrarlayın:

«Kim ___________, ___________yaradılışdır, ___________şeylər keçib-getdi, ___________şeylər gəldi!» (2 Kor. 5:17)

İndi isə belə dua edin:

"Ey Rəbb,

Öz mərhəmətinə görə bizi seçdin, buna görə Sənə minnətdaram!

Yenidən doğulduğuma görə minnətdaram, yeni təbiətə görə minnətdaram.

Köhnə günahlı təbiətimə qarşı mübarizədə Məsihin gücü ilə mənə hər gün kömək et.

Amin».



**2-ci dərs: EV TAPŞIRIĞI**

Həyatınızda baş verən, yeni təbiətinizdən gələn dəyişikliklərin üçünü kağıza yazın. Allaha bu dəyişikliklərə görə şükür edin. Həmçinin həyatınızda köhnə təbiətinizdən olan üç pis vərdişi kağıza yazın. Bu həftə Allahın köməyi ilə bu pis vərdişlərə qarşı çıxın.

## 2-ci dərs: İCMAL

1. a) Bir kəs özünü Məsihə etibar edəndə nə baş verir? ______ doğulma

   b) Məsihin davamçıları olaraq, biz yeni insan olanda kim oluruq? biz Allahın ___________________________

2. Ruhani döyüş bizim [köhnə / yeni] günahlı təbiətimizlə bizim Məsihdə [köhnə / yeni] təbiətimiz arasında baş verir. *(düzgün cavabı qeyd edin)*

3. İsa Məsih Öz davamçılarının həyatına hansı dəyişiklikləri gətirir? İki nümunə gətirin. *(yadınıza düşmürsə, 11-12-ci suallara baxın)*:

________________________________________________________________________

4. Əzbərlədiyiniz 2Korinflilərə 5:17-ci ayədən boşluqları doldurun:

   «Kim ___________, ___________yaradılışdır, ___________şeylər keçib-getdi, ___________ şeylər gəldi!»

## 2-ci dərs: CAVABLAR

1. b)
2. Peterin
3. şəxsi cavab
4. adamlarıyıq
5. a)
6. xeyr (lakin buna əmin deyilsinizsə, məsləhətçiniz ilə danışın)
7. seçilmişləri
8. kəpənək
9. doğulma
10. b)
11. a)
12. C
13. c)
14. a)
15. müzakirəyə hazır olun
16. b)
17. a) köhnə təbiəti b) yeni təbiətə
18. a) yeni b) yeni c) köhnə d) köhnə
19. müzakirəyə hazır olun
20. ayəni əzbərləyin

